## İmaməliyev Nəriman Məcid oğlu



Azərbaycan Respublikası Memarlar İttifaqının Memarlıq yaradıcılığı üzrə komissiyasının sədri **İmaməliyev Nəriman Məcid oğlu** 1971-ci ildə anadan olmuşdur. 1988-1990-cı illərdə Azərbaycan Memarlıq və İnşaat universitetində təhsil almış və 1990-1994-cü illərdə Krakov Politexnik universitetində təhsilini davam etdirmişdir. 1994-1998-ci illərdə Bakı şəhər İcra Hakimiyyəti Memarlıq və şəhərsalma Baş idarəsində memar, 1997-1998-ci illərdə "Azərsun Holding" MMC-də memar, 1998-2001-ci illərdə "El&En" memarlıq şirkətində memar vəzifəsində çalışmışdır. 2001-ci ildən "Nəriman Memarlıq" memarlıq şirkətinin təsisçisi və baş memarıdır.

Nəriman İmaməliyev 1997-ci ildən Azərbaycan Memarlar İttifaqının üzvüdür. 2012-ci ildə Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin üzvü seçilmişdir.

Dəfələrlə Respublika və beynəlxalq müsabiqələrin qalibi olmuşdur. Bir çox layihələrin müəllifidir: Bakıda "Çıraq Plaza", Tbilisi prospektində 14 mərtəbəli otel və ofis binası; "Azərkosmos" ASC Əsas peyk idarəetmə mərkəzi; Moskvada Barvixa qəsəbəsində yaşayış kompleksi və s.

2008-ci ildə Azərbaycan Memarlar İttifaqı tərəfindən "Ustad Memar" yüksək peşəkarlıq sertifikatına layiq görülmüşdür. 2012-ci ildə Azərbaycan Respublikası Prezidentinin 01 oktyabr tarixli Fərmanı ilə «Respublikanın Əməkdar memarı» fəxri adına layiq görülmüşdür. 2015-ci ildən Beynəlxalq Memarlıq Akademiyasının Moskva bölməsinin professorudur.